**Ötən əsrin möcüzəsi kimi tarixə yazılan "Əsrin müqaviləsi"nin imzalanmasından 21 il ötür. Ümummilli lider Heydər Əliyev neft strategiyasını müəyyənləşdirməklə Azərbaycanın bugünkü inkişafının, iqtisadi müstəqilliyinin əsasını qoydu. Eyni zamanda bu müqavilənin imzalanması ilə ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi xadim olduğu bir daha təsdiqləndi. 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi"nin imzalanması mərasimində ümummilli lider Heydər Əliyev bildirmişdir ki, müqavilənin reallaşması Azərbaycanın taleyində yeni dövrün başlanması üçün təməl oldu. Bu o deməkdir ki, Azərbaycan xalqı öz taleyinin sahibinə çevrilir.**




# "Əsrin müqaviləsi" iqtisadi müstəqilliyimizin təməl daşıdır

## SOCAR-ın İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin rəis müavini Azər Rzayev vurğuladı ki, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bazar iqtisadiyyatı yolunda irəliləməsi üçün zəmin yaratdı

"Əsrin müqaviləsi" Azərbaycanın hərtərəfli inkişafı, qlobal enerji bazarına inamla daxil olması, dünya iqtisadi sisteminə inteqrasiyanın təmin edilməsi üçün münbit zəmin yaratmış və iqtisadiyyatımızın digər sahələrinin də tərəqqisinə güclü təkan vermişdir. "Əsrin müqaviləsi" çərçivəsində görülən işlər ölkəmizə yönəldilən iri həcmli xarici investisiyalara, neft sektorunun tamamilə yeniləşməsinə, texniki və texnoloji cəhətdən inkişaf etməsinə möhkəm əsas yaratmışdır. Bununla bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin (İTRİ) rəis müavini Azər Rzayev fikirlərini bizimlə bölüşdü. "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşıdır" deyən A.Rzayev vurğuladı ki, "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 21 il də ölkəmizin həyatında bir çox hadisələrlə yadda qaldı. Bu gün Azərbaycan müasir, zəngin, qüdrətli dövlət kimi tanınır və qəbul olunur. Bu uğuru Azərbaycana qazandıran ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti oldu. Hazırda bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi xalqımızda gələcəyə olan inamı daha da artırır. Yeni neft strategiyasının uğurla həyata keçirilməsi ölkəmizi iqtisadi tərəqqi yoluna çıxardı.

İTRİ-nin rəis müavini qeyd etdi ki, "Əsrin müqaviləsi"nin ölkəmiz üçün iqtisadi və siyasi əhəmiyyətini görmək, ən əsası düzgün qiymətləndirmək üçün həmin dövrdən ötən müddət ərzində Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salmaq kifayətdir: "Möhtərəm Prezidentimiz İlham Əliyev bütün çıxışlarında neft gəlirlərində şəffaflığın təmin olunması məsələsinə diqqəti yönəldir, bunu vacib məsələ kimi qeyd edir. Yeni neft strategiyasında öz ümumi ifadəsini tapan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bazar iqtisadiyyatı yolunda irəliləməsi üçün zəmin yaratdı. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra çoxsaylı beynəlxalq müqavilələr imzalandı. Azərbaycan xarici investisiyalar üçün çox cəlbedici ölkə kimi özünü təsdiq etdi." Ulu öndər Heydər Əliyevin "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmləndirilməsi üçün gözəl imkan yaradacaq" fikrini bir daha xatırladan həmsöhbətimiz bugünkü uğurlarımızın gələcəyə böyük inamla baxmağa əsas verdiyini bildirdi.







A.Rzayev vurğuladı ki, ötən il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümünün qeyd olunduğu gündə Azərbaycanın iqtisadi həyatı, eləcə də Avropanın enerji bazarı üçün son dərəcə mühüm bir hadisə baş verdi. Bir sıra Qərb ölkələrinin dövlət və hökumət başçılarının, eləcə də energetika sahəsində məsul şəxslərin iştirakı ilə Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimi keçirildi. 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməlinin qoyulması çoxşaxəli enerji siyasətinin növbəti uğuru kimi tarixə düşdü.

Azər Rzayev qarşıdan gələn 20 sentyabr - Neftçilər Günü münasibətilə SOCAR rəhbərliyini, Dövlət Neft Şirkətinin idarə və müəssisələrində çalışan çoxminli neftçi ailəsini təbrik etdi. Daim Şirkət rəhbərliyinin etimadını doğrultmaq məqsədilə əlindən gələni əsirgəməyən İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin kollektivi "Əsrin müqaviləsi"nin 21 illiyi ərəfəsində də mühüm işlər görərək neft sənayesinin inkişafına öz töhfələrini verir. A.Rzayev vurğuladı ki, bu işlərin həyata keçirilməsində Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin diqqət və qayğısı olduqca böyükdür. İnformasiya Texnologiyaları və Rabitə İdarəsi SOCAR-ın bütün müəssisə və təşkilatlarını əlaqələndirən, rabitə, mühafizə, kompyuter-informasiya şəbəkə texnologiyalarını inteqrasiya etmək qabiliyyətində olan müasir şəbəkə sisteminin qurulmasını, korporativ kompyuter şəbəkəsi iştirakçıları üçün mərkəzləşdirilmiş qaydada internetə çıxışının təmin edilməsini, informasiya təhlükəsizliyinin, informasiya mübadiləsinin effektivliyini, habelə mərkəzləşdirilmiş qaydada şəbəkə sisteminin inzibatçılığını təmin edir, sistemin nizamlı işini təşkil edir. Bu işlərin yerinə yetirilməsində ən vacib məsələlərdən biri işçilərin sosial rifahının yaxşılaşdırılmasıdır. İnformasiya Texnologiyaları və Rabitə İdarəsində Sosial İnkişaf Proqramı üzrə işlər uğurla yerinə yetirilir.

Sonda Azər Rzayev əminliklə bildirdi ki, SOCAR rəhbərliyi tərəfindən göstərilən etimad və dəstək sayəsində "Əsrin müqaviləsi" ilə təməli qoyulan neft strategiyasının inkişafı naminə İTRİ-nin kollektivi gələcəkdə daha böyük əzm və qətiyyət göstərərək səylə çalışacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***